# Ailədə və cəmiyyətdə qadınların hüquqi və sosial statusu

**Hicran Ehtibar qızı Verdiyeva**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*Gəncə Dövlət Universiteti*
**E-mail:** nika.2011@mail.ru

**Rəyçilər:** p.ü.e.d., prof. A.N. Abbasov,
p.ü.f.d. L.A. Məmmədli

**Açar sözlər:** hüquqi status, qadınların hüquqi statusu, sosial status, qadınların sosial statusu, ailədə və cəmiyyətdə qadınların hüquqi statusu, ailədə və cəmiyyətdə qadınların sosial statusu

**Ключевые слова:** правовой статус, правовой статус женщин, социальный статус, социальный статус женщин, правовой статус женщин в семье и обществе, социальный статус, социальный статус женщин в семье и обществе

**Key words:** legal status, legal status of women, social status, social status of women, legal status of women in the family and society, social status, social status of women in the family and society

Azərbaycanda ailədə və cəmiyyətdə qadınların hüquqları qorunur, sosial statusuna xüsusi diqqət yetirilir. Ölkəmizin əsas qanununda öz ifadəsini tapmış bütün insan və vətəndaş hüquqları (bərabərlik hüququ, yaşamaq hüququ, azadlıq hüququ, mülkiyyət hüququ, əqli mülkiyyət hüququ, təhlükəsiz yaşamaq hüququ, şəxsi toxunulmazlıq hüququ, nikah hüququ, əmək hüququ, tətil hüququ, istirahət hüququ, sosial təminat hüququ, sağlam ətraf mühitdə yaşamaq hüququ, mədəniyyət hüququ, sağlamlığın qorunması hüququ, təhsil hüququ, mənzil hüququ, milli mənsubiyyət hüququ, ana dilindən istifadə hüququ, şərəf və ləyaqətin müdafiəsi hüququ) və azadlıqlar (fikir və söz azadlığı, vicdan azadlığı, sərbəst toplaşmaq azadlığı, məlumat azadlığı, yaradıcılıq azadlığı) həm də qadınlara şamil olunur.

Ölkəmizdə qadının seçmək və seçilmək hüququ vardır ki, respublikamızın parlamentinə - Milli Məclisinə, bələdiyyə orqanlarına seçkilərdə iştirak edir, bələdiyyə orqanlarında təmsil olunur, üzv seçilir, Milli Məclisin deputatı olur. Bacarığına, qabiliyyətinə uyğun olaraq müxtəlif rəhbər vəzifələrdə çalışır. Nümunələrə müraciət edək: Mehriban Əliyeva - Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, UNESCO-nun Xoşməramlı səfiri; Heydər Əliyev Fondunun prezidenti, Sahibə xanım Qafarova respublika Milli Məclisinin sədri; Sevda Məmmədəliyeva – Mədəniyyət nazirinin müavini; Səbinə Əliyeva - İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman); Bahar Muradova - Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri; Nurlana Əliyeva – Bakı Slavyan Universitetinin rektorudur.

Azərbaycan Respublikasının Konstitusiyasının 12-ci maddəsində göstərildiyi kimi, Azərbaycan dövlətinin ali məqsədi insan və vətəndaş hüquqlarının və azadlıqlarının, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin təmin edilməsindən ibarətdir. Əsas Qanunumuzun 16-cı maddəsi "Sosial inkişaf və dövlət" adlanır. Bu maddədə nəzərdə deyilir ki, Azərbaycan dövləti xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qalır.

Bu maddələr eyni zamanda istinasız olaraq qadınlarımıza da aiddir. Konstitusiyamızın

"Ailə, uşaqlar və dövlət" adlanan 17-ci maddəsi nəzərdə tutur ki:

"I. Cəmiyyətin əsas özəyi kimi ailə dövlətin xüsusi himayəsindədir.

II. Uşaqların qayğısına qalmaq və onları tərbiyə etmək valideynlərin borcudur. Bu borcun yerinə yetirilməsinə dövlət nəzarət edir.

IV. Uşaqları onların həyatına, sağlamlığına və ya mənəviyyatına təhlükə törədə bilən fəaliyyətə cəlb etmək qadağandır.

VI. Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarət edir" (1).

Ölkəmizin Əsas qanununun 24-cü və 26-cı maddələrinə görə,

"I. İnsan ləyaqəti qorunur və ona hörmət edilir".

II. Hər kəsin doğulduğu andan toxunulmaz, pozulmaz və ayrılmaz hüquqları və azadlıqları vardır (maddə 24).

I. Hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır (maddə 26). Konstitusiyanın 34-cü maddəsi nikah hüququ ilə bağlıdır. Həmin maddə nəzərdə tutur ki:

"I. Hər kəsin qanunla nəzərdə tutulmuş yaşa çatdıqda ailə qurmaq hüququ vardır.

II. Nikah könüllü razılıq əsasında bağlanılır. Heç kəs zorla evləndirilə (ərə verilə) bilməz.

III. Nikah və ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Dövlət çoxuşaqlı ailələrə yardım göstərir.

IV. Ər ilə arvadın hüquqları bərabərdir. Uşaqlara qayğı göstərmək, onları tərbiyə etmək valideynlərin həm hüququ, həm də borcudur.

V. Valideynlərə hörmət etmək, onların qayğısına qalmaq uşaqların borcudur. 18 yaşına çatmış əmək qabiliyyətli uşaqlar əmək qabiliyyəti olmayan valideynlərini saxlamağa borcludurlar" (1).

Ailədə və cəmiyyətdə qadınların hüquqi və sosial statusundan danışılarkən "Azərbaycan Respublikasının Ailə Məcəlləsi"nin müvafiq maddələrini də yada salmaq lazım gəlir.

Məcəllədə xüsusi qeyd olunur ki, ailə qanunvericiliyi ailənin möhkəmləndirilməsinin zəruri olmasından, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hisslərinə əsasən qurulmasından, ailənin işinə kiminsə qarışmasının yolverilməzliyindən, ailə üzvlərinin ailə qarşısında qarşılıqlı yardım və məsuliyyətindən, onların hüquqlarının maneəsiz həyata keçirilməsinə nail olmaqdan və həmin hüquqların məhkəmədə müdafiəsi imkanlarından irəli gəlir.

Ailə münasibətlərinin hüquqi tənzimi ilə bağlı "Azərbaycan Respublikasının Ailə Məcəlləsi ilə tənzimlənən münasibətlər" maddəsində (maddə 2) məlumat verilmişdir. Bu maddənin ikinci bəndi ailədə və cəmiyyətdə qadınların hüquqi və sosial statusu ilə sıx surətdə bağlıdır. Məcəllədə deyildiyi kimi, "ailə münasibətlərinin hüquqi tənzimi qadınla kişinin nikahının könüllülüyü, ər-arvadın hüquq bərabərliyi, ailədaxili məsələlərin qarşılıqlı razılıq əsasında həll olunması, uşaqların ailə tərbiyəsinin üstünlüyü, onların rifahına və inkişafına qayğı, ailənin yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin hüquq və mənafelərinin müdafiəsinin təmin olunması prinsiplərinə uyğun həyata keçirilir" (2).

Göründüyü kimi, bu vəzifələrdə uşaqların, o cümlədən qız uşaqlarının ailədə tərbiyə məsələləri önəmli yer tutmuşdur.

Maddə 6. Ailə hüquqlarının həyata keçirilməsi və ailə vəzifələrinin yerinə yetirilməsi

Nikahın bağlanması və nikaha xitam verilməsində Məcəllənin 3-cü fəslində bəhs edilir. 9-cu maddə "Nikahın bağlanma qaydası" adlanır. Maddədə deyilir: "1. Nikah müvafiq icra hakimiyyəti orqanı tərəfindən nikaha daxil olmaq istəyən şəxslərin, tibbi müayinədən keçdiklərini təsdiq edən arayış əlavə edilməklə, bu barədə ərizə verdikləri gündən 1 ay sonra onların iştirakı ilə bağlanır" (2). http://www.e-qanun.az/alpidata/code/data/0/c_c_10.htm - _edn2

10-cu maddə “Nikahın yaşı”na aiddir. Göstərilir ki, respublikamızda “nikah yaşı 18 yaş müəyyən olunur. Üzrlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər”.

Qızlar və oğlanlar ailədə də bir yerdə tərbiyə alırlar. Valideynin vəzifəsi oğlanlarda yanaşı qızların da tərbiyəsini düzgün qurmaqdır.

Bu sahədə Ailə, Qadın v. Uşaq Problemləri üzrə Dövlət Komitəsi də ailənin köməyinə gəlir.

Hələ 14 yanvar 1998-il tarixində Azərbaycan Respublikası Prezidenti Qadın Problemləri üzrə Dövlət Komitəsinin yaradılması ilə bağlı Fərman imzalamışdır. Komitə xeyli müddət üzərinə düşən vəzifələri yerinə yetirmək üçün məqsədyönlü fəaliyyət göstərmişdir. Lakin ailə və uşaq problemlərinin qadın problemləri ilə əlaqəli surətdə kompleks həllinin vacibliyi meydana çıxdığından ölkə Prezidentinin 6 fevral 2006-cı il tarixli Fərmanına əsasən haqqında danışılan komitənin adı Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi kimi formalaşdırılmış və qarşısında duran məqsəd və vəzifələr daha da genişləndirilmişdir.

Komitə əsas etibari ilə dövlətin ailə siyasətini həyata keçirmək məqsədi daşıyır. Ailə, qadın və uşaq problemləri üzrə dövlət siyasətini və tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı hesab edilir. Özünün səlahiyyətləri çərçivəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, o cümlədən uşaq və qadın hüquqlarının həyata keçirilməsinə nail olmaq və onların pozulmasının qarşısını almaq istiqamətində öz işlərini qurur.

Biz “Azərbaycan Respublikasının Cinayət Məcəlləsi” ilə də tanış olduq. Bu məcəllənin beşinci bölməsi “Yetkinlik yaşına çatmayanların cinayət məsuliyyəti”; bölmənin 14-cü fəsli “Yetkinlik yaşına çatmayanların barəsində cinayət məsuliyyətinin və cəzanın xüsusiyyətləri” adlanır. 84-cü maddədə göstərilir ki, “Cinayət törədərkən on dörd yaşı tamam olmuş, lakin on səkkiz yaşına çatmayan şəxslər yetkinlik yaşına çatmayanlar hesab olunur” (3).

85-ci maddədə “Yetkinlik yaşına çatmayanlara təyin edilən cəzanın növləri” sadalanır. Biz həmin məsələlər üzərində deyil, bilavasitə analara aid cinayətləri yada salmaq istərdik. 121-ci maddə “Ananın yeni doğduğu uşağı qəsdən öldürməsi” adlanır və deyilir: “Ananın yeni doğduğu uşağı doğuş vaxtı və ya doğuşdan dərhal sonra qəsdən öldürməsi — üç ilədək müddətə azadlığın məhdudlaşdırılması və ya üç ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır”. 141-ci maddə (“Qanunsuz abort etmə”) bəyan edir ki: “Həkim tərəfindən tibb müəssisələrindən kənarda abort etmə — *beş yüz manatdan min* manatadək miqdarda cərimə və ya altı ayadək müddətə islah işləri ilə cəzalandırılır” (3). http://e-qanun.az/alpidata/code/data/0/c_c_11.htm - edn244

Cinayət Məcəlləsinin 20-ci fəsli də dissertasiyada nəzərdən keçirilən problemlə bilvasitə bağlıdır. Bu fəsil “Şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə olan cinayətlər” adlanır. 149-cu maddə “Zorlama” hallarının üzərində dayanır. Göstərilir ki, “1. Zorlama, yəni zərərçəkmiş şəxsə və ya başqa şəxslərə qarşı zor tətbiq etməklə və ya belə zor tətbiq etmə hədəsi ilə və ya zərərçəkmiş şəxsin köməksiz vəziyyətindən istifadə etməklə onunla cinsi əlaqədə olma — dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

2. Eyni əməllər:

2.1. bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən törədildikdə;

2.2. zərərçəkmiş şəxsin zöhrəvi xəstəliyə yoluxmasına səbəb olduqda;

2.3. təqsirkar şəxs üçün aşkar surətdə yetkinlik yaşına çatmayan şəxsə qarşı törədildikdə;

2.4. zərərçəkmiş şəxsi və ya başqa şəxsləri öldürmə və ya sağlamlığa ağır zərər vurma hə-

dəsi ilə, habelə xüsusi amansızlıqla törədildikdə;

2.5. təkrar törədildikdə —

beş ildən on illədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

3. Eyni əməllər:

3.1. ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda;

3.2. ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin insan immunçatışmazlığı virusu ilə yoluxmasına və ya digər ağır nəticələrə səbəb olduqda;

3.3. təqsirkar şəxs üçün aşkar surətdə on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə — on ildən on beş illədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. http://e-qanun.az/alpidata/code/data/0/c_c_11.htm - edn269

Məcəllənin 152-ci maddəsində "On altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə"dən bəhs edilir. Göstərilir ki:

1. On altı yaşına çatmayan şəxslə cinsi əlaqədə olma və ya seksual xarakterli digər hərəkətlər etmə —

üç illədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

2. Eyni əməllər on dörd yaşına çatmayan şəxs barəsində törədildikdə —

üç ildən altı illədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

152.3. Bu Məcəllənin 152.1 və ya 152.2-ci maddələrində göstərilən əməllər yetkinlik yaşına çatmayanı tərbiyə etmək vəzifəsi daşıyan şəxslər və ya yetkinlik yaşına çatmayana nəzarəti həyata keçirmək vəzifəsini daşıyan təhsil, tərbiyə, tibbi və ya digər müəssisənin müəllimi və ya digər işçisi tərəfindən törədildikdə —

üç illədək müddətə müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməklə və ya edilməməklə dörd ildən yeddi illədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır (3).

Deyilənlərdən göründüyü kimi, ailədə və cəmiyyətdə qadınların hüquqi və sosial statusu önəmlidir, onların mənafeyi keşiyində dayanır.

**Məqalənin aktuallığı.** Yeniyetmə qız şəxsiyyətinin formalaşdırılmasında qadın tərbiyəsi ilə bağlı ənənələrdən istifadə üzrə iş ailədə və cəmiyyətdə qadınların hüquqi və sosial statusunun da diqqət mərkəzinə gətirilməsini tələb edir. Bu da mövzunun aktuallığını gündəmə gətirir.

**Məqalənin elmi yeniliyi.** Ailədə və cəmiyyətdə qadınların hüquqi və sosial statusu üzərində dayanılır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə doktorant və dissertantlar üçün faydalı olacaqdır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası. http://www.e-qanun.az/framework/897
2. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı: Qanun, 2005, 160 s.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi http://www.e-qanun.az/code/11

**Х. Э. Вердиева**

## Правовой и социальный статус женщины в семье и обществе

## Резюме

В Азербайджане права женщин защищены в семье, обществе и особое внимание также уделяется их социальному статусу. Все права человека и гражданина, закрепленные в Основном законе нашей страны (равенство, право на жизнь, право на свободу, право собственности, право интеллектуальной собственности, право на жизнь в безопасности, право на личную неприкосновенность, право на брак, право на труд, право на отпуск, право на отдых, право на социальное обеспечение, право жить в здоровой окружающей среде, право на культуру, право на здоровье, право на образование, право на квартиру, право на гражданство, право использования родного языка, право на защиту чести и достоинства) и свободы (свобода мысли и слова, свобода совести, свобода информации, свобода творчества) также применимы и к женщинам.

**Kh.E. Verdieva**

## The legal and social status of women in the family and society

## Summary

In Azerbaijan, women's rights are protected in the family, society, and special attention is also paid to their social status. All human and civil rights enshrined in the Basic Law of our country (equality, the right to life, the right to freedom, the right to property, the right to intellectual property, the right to live in safety, the right to personal integrity, the right to marriage, the right to work, the right to vacation, the right to rest, the right to social security, the right to live in a healthy environment, the right to culture, the right to health, the right to education, the right to an apartment, the right to citizenship, the right to use the mother tongue, the right to protection of honor and dignity) and freedom (freedom of thought and speech, freedom of conscience, freedom of information, freedom of creativity) are also applicable to women.

**Redaksiyaya daxil olub:** 20.02.2021